* * *

Vətən savaşının ilk poemasını yazmış Xalq şairi Sabir Rüstəmxanlı Azərbaycan ədəbiyyatında milli ruhun və yüksək vətəndaşlıq mövqeyinin böyük ədəbiyyatını yaratmış görkəmli sənətkarlardan biri kimi qəbul olunur. O, qan yaddaşının poeziyasını yaratmaqla, soykökə və qəhrəmanlıq tariximizə işıq salmaqla yeni tarixi epoxanın vətənpərvərlik-vətəndaşlıq ideallarına dəstək vermək missiyasını şərəflə və məsuliyyətlə yerinə yetirməyi özü üçün müqəddəs borc, ali vəzifə hesab edən şair-vətəndaşdır. Sabir Rüstəmxanlının yaradıcılığındakı Gəncə qapısı – Cavadxan motivi,

Xətai yurdu – Meydan hərəkatı notları milli-azadlıq hərəkatı mövzusunda meydana qoyulmuş ən yaxşı əsərlər sırasındadır.

XX əsrin səksəninci illərinin ikinci yarısında meydana çıxmış məşhur "Ömür kitabı" geniş mənada Azərbaycan ədəbiyyatının milli istiqlal kitabına çevrilmişdir. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatının istiqlalçılıq və vətəndaşlıq salnaməsində Sabir Rüstəmxanlının mühüm yeri və böyük payı vardır.

"Ədəbiyyat qəzeti"nin oxuculara təqdim etdiyi "Qarabağa dönüş" poeması Sabir Rüstəmxanlının yaradıcılığındakı milli-vətəndaşlıq ənənəsinin uğurlu və yaradıcı davamından ibarət olan qiymətli bədii əsərdir. Bu, eyni zamanda vətəndaş şairin vaxtilə Meydan hərəkatından başlanaraq Dağlıq Qarabağ uğrunda apardığı mübarizənin poetik, təbii bir əks-sədasıdır. Şairin hələ iyirmi beş

il bundan əvvəl itirilmiş torpaqlara qayıdışa dərin ümid və inam duyğuları ilə yazdığı bir şeirin “Qarabağa dönüş” poemasının epiloqu kimi verilməsi də təsadüfi olmayıb, onun yaradıcılığında bu mövzunun davamlı yer tutduğunu göstərir.

Bundan başqa, “Qarabağa dönüş” poeması 27 sentyabr 2020-ci il tarixdə Vətən müharibəsi başlanan gündən Sabir Rüstəmxanlının dövri mətbuatda, radio və televiziyada, sosial şəbəkələrdə müstəqil Azərbaycan dövlətinə və ordumuzun hərbi yürüşlərinə dəstək vermək məqsədilə etdiyi çoxsaylı çıxışların, verdiyi müsahibələrin, çap etdirdiyi şeir və məqalələrin məntiqi yekunudur. Nəhayət, bu poema Sabir Rüstəmxanlının şair-vətəndaş kimi müstəqil Azərbaycan ədəbiyyatı qarşısındakı borcunun bədii ifadəsidir, növbəti hesabatıdır.

Sabir Rüstəmxanlı “Qarabağa dönüş” mövzusuna həm bədii-fəlsəfi və həm də mövcud reallıqlar

baxımından yanaşmışdır. O, Dağlıq Qarabağın və ətraf ərazilərin işğal edilməsinə də yalnız torpaqlarımızın düşmən tapdağına çevrilməsi kimi yox, bütövlükdə milli-mənəvi varlığımızın böyük bir parçasının itirilməsi miqyasında baxdığı üçün "Qarabağa dönüş" hərəkatını da geniş mənada parçalanmış ruhumuzun bütövləşməsi hadisəsi səviyyəsində poetikləşdirmişdir. "Qarabağa dönüş" həm ərazi baxımından, həm də milli-mənəvi cəhətdən doğma Vətənin bütövlüyünə qovuşmasının poemasıdır. Bu, ümumiləşdirilmiş şəkildə bütün yönləri ilə Bütövlük haqqında poemadır, milli-mənəvi və inzibati-coğrafi bütövlüyün uğurlu poetik təqdimatıdır.

**Akademik İsa Həbibbəyli,**

*("Bütövlüyün təntənəsi, zəfərin isti izlərinin poeması" məqaləsindən)*

* * *

“Ədəbiyyat qəzeti”nin ötən ilin 24 dekabr nömrəsində Xalq şairi Sabir Rüstəmxanlının Vətən müharibəsində qələbəmizi tarixi salnaməyə çevirən “Qarabağa dönüş” poeması ədəbi ictimaiyyətə təqdim olundu... Belə bir poemanı yazmaq şairə Tanrının müdrik yaşında ərməğan etdiyi tale qismətidir. Sabir Rüstəmxanlı sovet ideologiyasının hökm sürdüyü dövrlərdə belə öz istiqlal düşüncəsini poeziyası ilə yetişməkdə olan gəncliyin zehniyyətinə ötürə bilirdi. 1970-ci illərdə yaradıcılığının yüksəlişli dövründə yaratdığı bütün əsərlərində

milli müstəqillik, azadlıq ideyaları, cənub həsrəti əsas motiv kimi onu şairlər sırasında önə çıxaran önəmli keyfiyyət kimi diqqəti cəlb edirdi. O illərdə qələmə aldığı “Bütövlük” poemasında deyirdi:

Müstəqillik! İlk inamım, ilk həsrətim,
Müstəqillik! Xalqın məslək bayrağıdır.
Müstəqillik hər ölkənin, məmləkətin,
Zülm, əsarət orbitindən çıxmağıdır.

Sovet ideologiyasının ən qüdrətli vaxtında milli-ictimai pafosla danışmağın özü böyük cəsarət tələb edirdi. Bu illərdən başlanan milli ideyaların, azərbaycançılıq-türkçülük təfəkkürünün geniş şəkildə yaranması və təbliğində, eləcə də 90-cı illərin əvvəllərində başlanan meydan hərəkatının inkişafı, milli mücadilə tariximizin şanlı səhifələrinin yazılmasında, ictimai-siyasi fəaliyyəti ilə